

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 168 (23.580)

3 oktyabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib.




# Azərbaycan Ordusu qələbəni yaxınlaşdırır

Qarabağ problemi iki yüz ildən artıqdır ki, ortaya atılıb. Rusiya ilə Qacarlar İranı arasında XIX əsrin əvvəllərində aparılan müharibələr nəticəsində 1805-ci ilin may ayında "Kürəkçay" müqaviləsi ilə Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil edilib. Həmin müharibələrin yekununda, xüsusilə Türkmənçay müqaviləsi ilə İran ərazisindən ermənilər Azərbaycan torpaqlarına köçürülüb. Həmin ərazilərdən biri də Dağlıq Qarabağ idi. Bu illərdə Cənubi Qafqazda ermənilərin dövləti olmamışdır. Xarici havadarlarının köməyi ilə 1918-ci ildə Ararat Respublikası – erməni dövləti yaradıldı. Bu illərdə Ermənistan dövlətinin sahəsi "Batum" müqaviləsinə (1918, 4 iyun) görə 9 min kvadratkilometr idi. Bununla kifayətlənməyən Ermənistan dövləti Azərbaycanın bir sıra torpaqlarına ərazi iddiaları irəli sürdü. Qarabağın, Zəngəzurun və Naxçıvanın onlara verilməsini tələb edirdilər. Ermənilər Qarabağın dağlıq ərazisində kompakt halda yaşayırdılar. 1918-1921-ci illərdə apardıqları açıq təxribat yolu ilə Qarabağın bir hissəsini Ermənistana birləşdirmək istəyirdilər. Artıq 1922-ci ildə Sovetlər Birliyi yaranmışdı və onların havadarları da artmışdı. 1921-ci il iyulun 3-də Qafqaz Bürosu Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun qəti mövqeyi sayəsində bunun qarşısı alındı və iyulun 4-də Qafqaz Bürosunun qərarı ilə Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı. Ermənilər isə bunu Azərbaycanın tərkibinə verilməsi kimi qeyd edirlər ki, bu, tamamilə yanlışdır. Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi və tərkibində də saxlanıldı.

SSRİ yarandıqdan sonra (1922, dekabr) ölkə rəhbərliyində Mikoyan, Kirov, Orconikidze, Çiçerin kimi adamlar erməniləri himayə edirdilər. Nəticədə, 1923-cü il iyulun 7-də 80 minə yaxın erməninin yaşadığı Dağlıq Qarabağa Azərbaycanın tərkibində mədəni muxtariyyət verildi. Bununla gələcək bəlaların, qarşıdurmanın əsası qoyuldu. Halbuki bu dövrdə Ermənistanda 350 min, Gürcüstanda bundan da çox azərbaycanlı yaşayırdı. Maraqlıdır, ermənilərə muxtariyyət hüququ verildiyi halda, nə üçün azərbaycanlılara muxtariyyət verilmədi? İkili siyasət həmin dövrdən davam edirdi.





XX əsrboyu erməni millətçiləri dəfələrlə Dağlıq Qarabağı Ermənistana birləşdirməyə cəhdlər etmiş, lakin bunu reallaşdıra bilməmişlər.

Mixail Qorbaçovun hakimiyyəti dövründə ermənilər üçün əlverişli fürsət yarandı. Baş katib ermənipərəst olduğundan, Aqambekyan, Sitaryan, Xaçaturov, Şahnazarov kimi ermənilər ətrafında yığdığından, onların dediklərinə əməl edirdi. Azərbaycan rəhbərliyinin zəifliyi (K.Bağırov, Ə.Vəzirov, Ə.Elçibəy, A.Mütəllibov) və hakimiyyət çəkişməsi ermənilərin Dağlıq Qarabağa yiyələnmələri üçün şərait yaratdı. Ermənilər nəinki Dağlıq Qarabağı, onun ətrafındakı 7 rayonu da (Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər, Qubadlı) işğal etdilər, azərbaycanlıları qaçqın və köçkün vəziyyətinə saldılar.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə atəşkəsə nail olundu (1994) və problemi həll etmək üçün ATƏT-in Minsk qrupu yaradıldı. Minsk qrupu BMT-nin əsas müddəası olan – Ermənistan qoşunları Azərbaycan torpaqlarından qeyd-şərtsiz və tamamilə çıxarılmalıdır prinsipini nəzərə almadı və problemi həll etmək istəmədi. İşğal faktını bir dəfə də olsa, qeyd etmədi, dilinə gətirmədi. Bundan istifadə edən Ermənistan Respublikası Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürməyə başladı, təxribatlar törətdi, himayədarlarının sayəsində silahlandı. Nəticədə, 2016-cı ilin aprel təxribatı, 2020-ci ilin iyul hadisələri baş verdi. Azərbaycan Ordusu ermənilərə layiqli cavab versə də, onlar nəticə çıxara bilmədilər. Açıq-aşkar Azərbaycanla müharibə dili ilə danışmağa başladılar, Azərbaycanı hədələdilər, "Gəncəni tutarıq", "Mingəçevir Su Anbarını partladarıq" kimi sərsəm fikirlər söyləməyə başladılar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bir sıra beynəlxalq tədbirlərdə Ermənistanın baş naziri N.Paşinyana əsl dərs verdi, siyasətdə onun təsadüfi və naşı adam olduğunu başa saldı. Bu ilin sentyabr ayında BMT-nin tribunasından Ermənistanın faşist siyasətini bütün dünyaya, BMT-yə, Minsk qrupuna çatdırdı. Müharibə hazırlığı aparan Ermənistanın dayandırılması üçün addımlar atılmasını, Azərbaycana qarşı onun mövqeyindən əl çəkməsini söylədi. Lakin dünya birliyi, beynəlxalq təşkilatlar, aid qurumlar əməli bir iş görmədi.

Nəticədə, Ermənistan 27 sentyabr 2020-ci il tarixdə Azərbaycana qarşı yeni təxribata əl atdı. Sərhəd rayonları, yaşayış məntəqələri – şəhər və kəndlər toplardan, qradlardan atəşə tutuldu. Bir neçə gündür ki, Ermənistan silahlı qüvvələri Cəbrayılı, Füzulini, Goranboyu, Tərtəri, Bərdəni, Naftalanı və başqa şəhər və kəndlərimizi, dinc sakinləri atəşə tutur, evləri, sosial obyektləri dağıdır. Erməni vandallarının atəşi nəticəsində 21 dinc sakin həlak olmuşdur ki, bunlardan da ikisi məktəblidir. 55 nəfər yaralanmış, 200-ə yaxın ev, sosial obyekt qismən, yaxud tamamilə dağıdılmışdır.



Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlamağa məcbur olmuş və erməni vandallarına lazımi dərs verməkdədir. Çoxsaylı erməni qüvvələri öldürülmüş, 200-dən çox tank və zirehli texnika, 230-a yaxın artilleriya qurğuları, 120-yə yaxın nəqliyyat vasitələri, 1 ədəd S-300 zenit-raket qurğusu və başqa vasitələr məhv edilmişdir. Qəhrəman əsgər və zabitlərimiz bir neçə yaşayış məntəqəsini, yüksəklikləri, idarəetmə punktlarını və Murovdağ yüksəkliyini ələ keçirmiş, erməni qüvvələrinin bəziləri silah-sursatını, nəqliyyat vasitələrini, döyüş bayrağını, rəsmi sənədləri ataraq qaçmışlar. Döyüş meydanında biabırcasına məğlub olan erməni silahlı qüvvələri bunun acığını Azərbaycanın dinc sakinlərindən, kənd və şəhərlərdən çıxmağa çalışırlar. Lakin bir həqiqət bizim üçün aydındır ki, torpaqlarımızı azad edəcək, bayrağımızı Xankəndidə, Şuşada və işğaldan azad edəcəyimiz başqa müqəddəs ərazilərimizdə dalğalandıracağıq.

***Son günlərin döyüşləri qələbəmizin yaxın günlərdə olacağına bizi inandırır. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı ordusu erməni vandallarına elə bir dərs verəcəklər ki, tarixboyu onlar bunu unutmayacaqlar. Əzəli və tarixi Azərbaycan torpaqları, Qarabağ yağı düşməndən azad ediləcək, qaçqın və köçkünlər öz yurdlarına dönəcəklər. Xalqımız yaxın günlərdə qələbə sevincini yaşayacaq. Hakimiyyət, ordu-xalq, xalq-ordu birliyi bunu qətiyyətlə deməyə imkan verir.***

**İsmayıl HACIYEV**
*akademik*

# Dövlət, xalq, ordu

## Biz birlikdə güclüyük

***Yenə bir qaranlıq gecə igid Azərbaycan əsgərinin şücaəti, rəşadəti ilə nura qərq oldu. Yenə bir sabahımız qələbə xəbəri ilə açıldı. İgid oğullarımız sentyabrın 27-ni tariximizə öz qanları ilə yazdılar. Yeni bir tarixi gün, yeni bir qələbə illərdir, torpaq həsrəti ilə yaşayan insanların gözündə sevinc yaşına, ürəyində qürura döndü. Torpaqlarımız erməni vandalları tərəfindən işğal ediləndən illər sonra – 2016-cı ilin Aprel döyüşlərində xalqımız həsrətində olduğu qələbə xəbəri ilə açdı bir yaz səhərini, iki il sonra 2018-ci ilin may səhərində isə qədim Naxçıvanımızdan qələbə soraqlı müjdələr qanad açdı doğma Azərbaycanımıza. Və bir neçə gündür, gözümüz yolda, qulağımız səsdə gözləyirik şanlı ordumuzun zəfər xəbərlərini.***

Elə bu düşüncələrlə Naxçıvanımızın qeyrət qalası Sədərəyə çatırıq.

İlk diqqətimizi çəkən uca dağların başında qurulan nəzarət postları olur. Yüksəklərdə dalğalanan ay-ulduzlu üçrəngli bayrağımıza, Vətənimizin sərhədinə keşik çəkən şir ürəkli, dağlara boyverən vüqarlı oğullarımıza baxdıqca yaxın keçmişimizdə baş verənləri xatırlayıram: Bir vaxtlar vüqarlı dağlarımızın ətirli çiçəkləri şəhid qanına boyanmışdı. Düşmənin atdığı toplar, alazanlar, qradlar kəndi xarabaya çevirmiş, yollar, əkin yerləri yanıb külə dönmüşdü. Vaxtilə gəlinlərimizin bəzəyi olan güllər şəhidlərimizin məzarlarını bəzəməyə başlamış, hər kəsin üz tutduğu müqəddəs ocaq – Şəhidlər xiyabanı yaranmışdı. Bütün bunlara baxmayaraq, qazandığımız müstəqilliyi itirməməyə səy göstərdik, torpağımızı qoruyurduq, bir addım belə, geri çəkilmədik. Yurdumuzun sakinləri bir olduqca, çiyin-çiyinə verdikcə, sanki bəlalar bizdən qorxub geri çəkildi. Həmin günlərdə belə, gələcəyə ümidlə baxan naxçıvanlılar düşmənin qarşısında Əlincə qalası kimi möhkəm dayandılar...

Keçmişin acı olsa da, qürur verən xatirələrindən məni məktəbə tələsən balacaların şən səsləri ayırır. Sədərək kənd bir nömrəli tam orta məktəbin həyətindən düşmən postlarını aydın şəkildə müşahidə etmək mümkündür. Məktəblilər isə buna heç məhəl belə, qoymurlar. Yuxarı siniflərdə təhsil alan şagirdlər də, məktəbə ilk qədəm qoyan balacalar da. Məktəblilərə yaxınlaşır, onlarla həmsöhbət oluruq. Beşinci sinif şagirdi Murad əli ilə uca dağlara işarə edib: “Mənim atam da hərbçidir. O, dağlarda xidmət edir. Biz heç birimiz düşməndən qorxmuruq, atam da, dayım da onlardan çox güclüdür. Babam deyir ki, o vaxtlar biz o düşmənlərin gözünün odunu almışıq. Əsgərlərimiz onlardan güclüdür”, – deyir.

Zərri Bağırova Naxçıvan şəhərindəndir. O, 17 ildən artıqdır ki, Heydərabad qəsəbəsində yaşayır, buradakı tam orta məktəbdə müəllim işləyir. Onun üç övladı var. Oğlu Füzuli rayonunda həqiqi hərbi xidmətdədir. Zərri müəllimə deyir ki, bir neçə gündür, cəbhədə yaşanan gərginlik bir ana kimi məni də narahat edir. Amma əminəm ki, igid oğullarımız düşmənin cavabını layiqincə verəcək. Çünki biz qəhrəman bir xalqın övladlarıyıq. Düşmənin qarşısında əzmlə, şücaətlə dayanan igidlərimizin sayəsində gecələr evimizdə rahat yatır, səhərlər əmin-amanlıqla məktəbimizdə dərs deyirik. Onlar sərhədimizə bir güllə belə, atmağa cəsarət etmirlər. Bilirlər ki, cavabları layiqincə veriləcək.

“Oğul düşmən çəpəridir”, – deyən ataların övladları bu gün xalqımızın necə vətənsevər olduğunu dünyaya sübut edir. Hamımızın, bütün anaların bir duası, bir arzusu var: torpaqlarımız azad olunsun. Ordumuz şanlı bayrağımızı Qarabağ torpağına sancsın... Oğlumun Füzuli istiqamətində döyüşlərdə iştirak etməsi bir ana kimi məni qürurlandırır. Sevinirəm ki, düşməndən azad olan torpaqda mənim də oğlumun ayaq izi var.

Məktəbdən ayrılıb gedəcəyimiz ünvana doğru yola çıxırıq. Kənd sakini, yaşı 80-i ötən Sara xala ilə məktəbin yaxınlığında yerləşən evinin qarşısında rastlaşırıq. Onunla həmsöhbət oluruq:

– Ay qızım, biz nələrə şahid olmuşuq bu yerlərdə. Vaxt var idi, bu murdar milləti sovetlər dönəmində gətirib bizə qardaş eləmişdilər. Onları evimizin, süfrəmizin başında əyləşdirdik. Təknəmizin çörəyindən pay verdik. Nə biləydik, bir neçə il sonra başımıza od ələyəcəklər, həmvətənlərimizi dədə-baba yurdlarından vəhşiliklə qovacaqlar. O vaxt bax bu gördüyün dağlarda qanlı döyüşlər gedirdi. Səngərdə bir oğlumuz şəhid olanda beşi onun silahını götürməyə, döyüşməyə tələsirdi. Xalq ellikIə Vətən torpağının müdafiəsinə qalxmışdı. Sədərəyin müdafiəsində Şərur və Sədərək camaatı ilə yanaşı, Naxçıvanın digər bölgələrindən gələn mərd Vətən övladları da var idi. Həmin günlərdə o mənfurlar paylarını necə aldılarsa, dönüb bizim tərəfə baxmağa cəsarət belə, etmirlər. Dünən də, bu gün də bizi düşməndən dağlar qoynunda keşik çəkən, bax o qəhrəman oğullar qoruyur. Hərəsi bir evin madarı, bir atanın, ananın ümid işığı, bir bacının qardaşı, bir gözəlin adaxlısı olan bu igidlərin sayəsində torpağımıza düşmən ayağı dəyməyəcək. “Ot kökü üstə bitər”, – deyiblər. Ulu babalarımız necə mərd olubsa, onların oğulları da elədir. İgid, məğrur ata-babalarımızın şücaəti, rəşadəti həmişə bizimlədir. Nəvələrim də, oğullarım da Vətən yolunda qurban getməyə hazırdır. Mən də, mənim kimi nənələr, analar da burada – evimizdə, öz isti ocağımızda arın-arxayın oturmuşuq. 90-cı illərdə əlimizdən gələni əsirgəməmişik, ordumuza dəstək olmuşuq. Qulağımızdan sırğanı, barmağımızdan üzüyü çıxarıb ordumuza silah-sursat almaq üçün vermişik. Evlərimizdə yemək bişirib, yun corab, şərf toxuyub əsgərlərimizə göndərmişik. Balalarımız ac qalmasın, üşüməsin, torpağımız işğal edilməsin deyə. Bu gün də dövlətimizə dayağıq. Xalq bir olduqca, çiyin-çiyinə verdikcə düşmən də ondan qorxub geri çəkilir.

Sara nənədən böyük ruh yüksəkliyi ilə ayrılıb Heydərabad qəsəbəsinə yollanırıq. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sədərək Rayon Şöbəsinin qarşısındakı qələbəlikdə diqqətimi çəkən bir məqam məni çox qürurlandırır. 90-cı illərdə Sədərək döyüşlərinin iştirakçısı olanlar indi də könüllü olaraq döyüşə getmək üçün buraya gəliblər. Həmin döyüşlərdə iki dəfə yaralanıb, bu gün bədənində qəlpə daşıyan rayon sakini Ramazan Adnayev dövlətimizin qayğısı ilə əhatə olunan veteranlardandır. O deyir: – Düşmən elə bilməsin ki, bizə qalib gələ bilər. İndi onların qarşısında ordusu xalqına, xalq dövlətinə, başlıcası isə Ali Baş Komandanına arxa, dayaq olan bir Azərbaycan var. Ürəyi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlı hər an hər cəbhədə döyüşməyə hazırdır. Bu gün Naxçıvanımızın ən ucqar nöqtəsi, düşmənlə üz-üzə olan Sədərəkdə tam sakitlikdir, onlar bir güllə belə, atmağa cəsarət etmirlər. Qorxaq, onun-bunun kölgəsində yatan bir millətin övladları olaraq səngərdən başlarını çıxarmağa belə, cürətləri yoxdur onların. O vaxtlar havadarlarından güc alıb cənnətimiz Qarabağı işğal etsələr də, bu gün onu geri qaytarmağa məcburdurlar. Humanist, sülhsevər xalqımız uzun illər səbir etdi işğaldakı torpaqlarımızın qan tökülmədən alınması üçün. Amma gördük ki, onlar öz mənfurluqlarından əl çəkmirlər. Uzaqgörən, hər bir vətəndaşın Prezidenti olan cənab İlham Əliyevin qətiyyətli addımları sayəsində bu ilin iyulunda, avqustunda düşmən hücumları dəf edildi. Artıq neçə gündür, davam edən əks-hücumla düşmən layiqli cavabını alır. Ordumuz xalqımızı qələbə xəbəri ilə müjdələyir. Elan olunan qismən səfərbərlikdən öncəki günlər də igidlər könüllü olaraq cəbhəyə getmək üçün axın-axın xidmətə üz tuturdular. Kimsə, bəlkə, düşünür ki, sağlamlığını itirmiş bir keçmiş döyüşçü döyüşə gedib nə edəcək? Biz sağlamlığımızı itirsək belə, Vətən eşqi ürəyimizdədir. Necə ki hər bir vətəndaşın ürəyində o sevgi yaşayır, Vətənimiz də vardır, var olacaq. Lazım gəlsə, sürünə-sürünə gedib, döyüşüb torpaqlarımızı geri alarıq. Yetər ki, yaşasın Azərbaycanımız, bayrağımız dalğalansın, şəhidlərimizin qisası alınsın.



*Bu gün hər kəsin yaşından, cəmiyyətdə tutduğu mövqedən, sağlamlığından asılı olmayaraq, könüllü şəkildə Vətənin müdafiəsinə can atmasından, burada həmsöhbət olduğumuz insanların dediklərindən bir daha əmin olduq ki, qədim Oğuz yurdu etibarlı əllərdədir. Güclü dövlətimiz, qüdrətli ordumuz, vətənpərvər insanlarımız Vətənimizin hər bir qarışının keşikçisidir. Vətənimiz etibarlı, ayıq-sayıqlıqla qorunursa, deməli, müstəqilliyimiz, dövlətçiliyimiz də əbədi və daimi olacaq.*

**Ramiyyə ƏKBƏROVA**

***Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik “böyük Ermənistan” ideyasını genişləndirərək dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədib.***

**Oxucu məktubu**

## Qoy qisas eşqiylə yaşasın hər kəs, Qisas alınmazsa, Vətən dincəlməz!..

1988-ci ildən başlayaraq Dağlıq Qarabağda və ona bitişik rayonlarda ermənilər böyük qardaşlarının himayədarlığı ilə can almaqla, qan tökməklə, canfəşanlıqları ilə qəddarlıq yolunu əsas məqsədləri etdilər.

1992-ci ildə dünyanın gözü qarşısında qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımını törətdilər. BMT-nin dörd qətnaməsini, digər təşkilatların qərar və qətnamələrini qulaqardına vuraraq Azərbaycanın əzəli və əbədi torpaqlarını işğal etdilər. 30 ilə yaxın lüzumsuz, nəticəsiz danışıqlar davam etdi.

2016-cı ildə yeni ərazilərimizi işğal etmək arzusu ilə növbəti təcavüzə əl atan ermənilər, ilk dəfə olaraq Azərbaycan Ordusunun gücünü gördü, barıtının qoxusunu duydu, öz qəsbkarlıq əməllərindən peşman oldu, havadarlarını köməyə çağırdı, saxta, hiyləgər vədlər verdi.

Xəmiri yalandan, məkrdən, fitvadan, nadinclikdən, namərdlikdən yoğurulan Ermənistanın baş naziri əl açaraq yalvarıb ondan-bundan aldığı yardımlar, ianələr, nəzirlər vasitəsilə hərbi arsenalını zənginləşdirdikdən sonra danışıqlardan imtina edib, həddini aşaraq “Qarabağ Ermənistandır” dedi. O, həddini aşaraq dünyanın gözü qarşısında yalanı yalana calamaqdan yorulmadı və 2020-ci ilin iyul ayında Tovuz rayonu ərazisində onun əmri ilə ermənilər dövlət sərhədimizi xaincəsinə pozaraq cəbhəboyu Azərbaycan torpaqlarından nəsə qoparmaq niyyətilə doğma Vətənimizə hücum etdilər. Həmsədrlər təcavüzkarı yerinə oturtmaq əvəzinə bəyanatlarla kifayətləndilər.

Ardınca diversiya dəstəsi göndərildi. Uca Allah haqqı nahaqqa vermədi, səriştəli kəşfiyyatçılarımızın səyi ilə dəstənin rəhbəri yaxalandı, ondan lazım olan bir çox məlumatlar alındı.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev BMT tribunasından ermənilərin müharibəyə başlayacağı ilə bağlı bütün dünyanı xəbərdar etdi.

Erməni faşistləri 27 sentyabr 2020-ci ildə səhər saat 6 radələrində bütün cəbhəboyu ağır silahlardan istifadə etməklə dövlətimizə, xalqımıza qarşı hücuma keçdi. Hazırda Azərbaycan Ordusu təcavüzkarı yerində oturtmaq üçün uğurlu əks-hücum əməliyyatı aparır.

Bütün Azərbaycan xalqı kimi Azərbaycanımızın, onun Naxçıvan Muxtar Respublikasının dilbər guşələrindən biri olan Ordubad rayonunun qəlbi Vətənə sədaqət, xalqa məhəbbət, düşmənə nifrət hissi ilə coşub-daşan vətənpərvər insanlarını da bu cinayətkar əməl hədsiz dərəcədə qəzəbləndirdi. Hamımız bir nəfər kimi dövlətimizin rəhbəri, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qəbul etdiyi Vətənin müdafiəsi üçün Azərbaycan Ordusuna hücum əmrinin verilməsini, eləcə də respublikamızda internetə məhdudiyyətlərin qoyulmasını, bir sıra yaşayış məntəqələrində komendant saatının tətbiq edilməsini və məhdud səfərbərlik əmrini ürəkdən alqışlayır, müzəffər ordumuza uğurlar diləyirik:

*Ocaqlar, bucaqlar, bağlar intizar,*
*Kəklikli dərələr, dağlar intizar,*
*Sonalar göllərdə ağlar intizar –*
*Qalx, əsgər qardaşım, Vətən çağırır!*

*Vətən namusum, arzum,*
*Vətən dövlətim, varım.*
*Vətən mənim vüqarım*
*Mən Vətənin oğluyam.*

Vətənpərvərlik elə bir hiss,duyğudur ki, onu hər an əməldə sübut etmək lazımdır. Veteranlar bu qəbildən olanlardır. Ordubad rayonunun qədirbilən veteranları:

*Mənə silah ver, oğlum, a mənim komandirim,*
*Kəsim dığanın səsin, yad bayrağın endirim,*

– deyərək gücümüz, qüvvətimiz daxilində ordumuzun yanında olduğumuzu bəyan edirik. Haqq bizimlədir! Allah dövlət rəhbərimizi, ordumuzu qorusun!

*Zülmün topu var, gülləsi var, qələsi varsa,*
*Haqqın da bükülməz qolu, dönməz üzü vardır!*

**Qələbə bizimdir, Qarabağ Azərbaycandır!**

**Fərrux NAĞIZADƏ**
***Ordubad rayonunun veteranları adından rayon təşkilatının sədri, istefada olan polkovnik-leytenant***

## Yeni quruculuq ünvanları

Muxtar respublikamızda aparılan quruculuq işləri uzun illərdir ki, geniş vüsət alıb. Şərur rayonuna da bu quruculuqdan xeyli pay düşüb. Belə tədbirlər cari ildə də davam etdirilir. Quruculuq ünvanları sırasında rayon mərkəzində inşa olunan Mədəniyyət sarayı da var.





İş icraçısı Vüqar Şabanovdan aldığımız məlumata görə, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olacaq binanın birinci mərtəbəsində 311 oturacaq yerlik zal, qarderob, bufet, növbətçi, kassa, açıq zal və başqa otaqlar yerləşəcək. İkinci mərtəbə isə şöbə müdiri, qəbul otağı, məşq otağı, mühasibatlıq, rejissor məsləhətçisi, dəhliz və digər xidməti otaqlardan ibarət olacaq. Mədəniyyət sarayının arxa bölümündə isə qrim və geyim otaqları, ikinci mərtəbədə direktor, geyim otağı, bədii rəhbər, metodist, yallı kollektivlərinin üzvləri yerləşəcək. Ümumilikdə, 130 kvadratmetr sahədə tikilən binada hazırda tamamlama işləri görülür.

Daha bir quruculuq ünvanı isə şəhərin mərkəzi küçələrinin birində yerləşən, zirzəmi ilə birlikdə 6 mərtəbəli yaşayış binasıdır. 40 mənzildən ibarət olan bina liftlə də təmin ediləcək. Hazırda tamamlama işləri aparılan binanın zirzəmisində qadın gözəllik salonu, bərbərxana, ərzaq mağazası və elektrik avadanlıqlarının təmiri sexi, Gigiyena və Epidemiologiya Mərkəzi üçün otaq da ayrılacaq.

**Telli MƏMMƏDOVA**

# Muxtar respublikada müəllimlərə göstərilən hərtərəfli qayğı təhsil uğurları ilə nəticələnir

*Hər il oktyabrın 5-i "Beynəlxalq Müəllimlər Günü" kimi qeyd olunur. Bəşər tarixinin hər bir mərhələsində cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafı ilə bağlı olmuşdur. Təhsilin inkişafı isə yüksəkixtisaslı, peşəkar və təcrübəli müəllimlərin formalaşmasından asılıdır. Azərbaycan xalqının təfəkküründə müəllim adı hər zaman ziyalılıq və mənəvi saflıq rəmzi olmuş, bu şərəfli peşə sahiblərinə xüsusi ehtiramla yanaşılmışdır.*

***"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram"***,– deyən ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə müəllimlərə böyük hörmətlə yanaşmış, onların əməyini yüksək qiymətləndirmişdir. Ulu öndərin təhsilə, müəllim əməyinə qayğıkeş münasibəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qanunvericilik bazası təkmilləşdirilir, Dövlət proqramları qəbul olunaraq icra edilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, artıq Azərbaycan dünyada sabitliyin təmin olunduğu və iqtisadiyyatı inkişaf edən ölkə olmaqla yanaşı, həm də elm və təhsil ölkəsi kimi tanınır. Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsində böyük rol oynayan müəllimlərinin əməyini qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur. Azərbaycan müəlliminin tarixən xalqımızın intellektual potensialının formalaşdırılmasında böyük xidmətləri vardır".***





Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsində ardıcıl tədbirlər görülür. Müstəqillik illərində muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi üçün yeni binalar tikilib istifadəyə verilmişdir. Təkcə 2020-ci ilin ötən dövründə 4 tam orta məktəb binası istifadəyə verilmiş, hazırda 4 ümumtəhsil müəssisəsi, Culfa rayon məktəbdənkənar tərbiyə müəssisələri və Culfa Rayon Təhsil Şöbəsi üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Ordubad və Culfa rayonunda yerləşən məktəbdənkənar müəssisələrdə innovativ dərnəklər yaradılır.

Muxtar respublikanın ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən çox elektron lövhə quraşdırılmış, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilmiş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin edilmişdir. Məktəblərimizdə tədrisin müasirləşdirilməsi diqqətdə saxlanılmış, qabaqcıl tədris metodlarının, o cümlədən distant təhsilin tətbiqinə başlanılmışdır.

Bilikli, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər yetişdirən müəllimlərin əməyi dövlətimiz tərəfindən daim qiymətləndirilmişdir. Muxtar respublikanın təhsil müəssisələrində çalışan müəllimlərdən 117-si Azərbaycan Respublikasının, 189-u isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 108 müəllim "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, 2019-cu il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılmışdır.

Bu gün mütərəqqi təhsil metodlarının tətbiqi, müəllim əməyinə verilən yüksək qiymət, təhsil müəssisələrində yaradılan müasir tədris şəraiti müəllim əməyinin bəhrələrini daha da artırır, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda nailiyyətlər qazanılır. Bunun nəticəsidir ki, muxtar respublikada 2019-2020-ci tədris ilinin nəticələri də uğurlu olmuş, qəbul imtahanlarında yüksək nəticələr əldə edilmiş, məzunlardan 1493-ü ali, 182-si isə ali hərbi məktəblərə olmaqla, ümumilikdə, 1675-i qəbul olmuşdur. Onlardan 275-i 500-700 arası bal toplamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası bütün təhsil müəssisələrində təhsilin keyfiyyətinin yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmiş, yeni təlim üsullarının tətbiqinə əlverişli şərait yaratmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarına uyğun olaraq pedaqoji kadrların müsabiqə ilə işə qəbulu həyata keçirilir. Bu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil məktəblərinin tədris prosesində informasiya texnologiyaları və müasir təlim üsullarından səmərəli istifadə edən bilikli müəllimlərlə təminatına geniş imkanlar açmışdır. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqələrdə yüksək nəticə göstərən 419 müəllim işlə təmin olunmuşdur. Bunlarla yanaşı, muxtar respublikada şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə ötən müddət ərzində keçirilən 3 sertifikasiya imtahanında yüksək nəticə göstərən 505 müəllim sertifikatla təmin edilmişdir.

Bu gün muxtar respublikada müəllim əməyinə yüksək dövlət qayğısı göstərilir, müəllimlərin peşəkar inkişafı və sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı ardıcıl addımlar atılır. Ali Məclis Sədrinin məktəbə, təhsilə, müəllimə göstərdiyi diqqətin nəticəsidir ki, bu gün ali məktəbə qəbul olunan gənclərimiz seçdikləri ixtisaslar arasında müəllim peşəsinə böyük maraq göstərirlər. Ötən tədris ilində



663 məzunun (onlardan 73-ü 500-700 arası bal toplayıb) pedaqoji profilli ixtisaslara qəbul olunması bunun əyani ifadəsidir. Son illər muxtar respublikamızın təhsil sistemində davamlı şəkildə həyata keçirilən müəllimlərin işə qəbulu imtahanları səriştəli, hazırlıqlı, yüksək motivasiyalı təhsilverənlərin ümumtəhsil müəssisələrinə gəlməsinə imkan verib. Müəllimlərin işə qəbulu prosesinin şəffaflığı, əlçatanlığı və nəticələri təhsil sistemində müsbət inkişaf dinamikasının güclənməsi, rəqabətli təhsil mühitinin formalaşması müəllim peşəsinin nüfuzunun artmasına gətirib çıxarıb.

Son illər muxtar respublikada təhsil sistemində aparılan islahatlar müəllim hazırlığı sahəsini də əhatə edir. Bu gün ali təhsil müəssisələrində müəllim hazırlığı sahəsində mühüm işlər görülür. Eyni zamanda onların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müəllim hazırlığına yeni yanaşmaları əks etdirən kurslar təşkil edilir, təlimin təşkilində nəzərdə tutulmuş məqsədlərə nail olunması, nəticələrin əldə edilməsi və müəllimlər arasında təcrübə mübadilələrinin aparılması üçün Naxçıvan Dövlət Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda kimya, biologiya və fizika fənləri üzrə ixtisasartırma kursları, elmi-praktik konfranslar keçirilir.

Bu gün təhsildə "İnteraktiv dərs", "Nümunəvi dərs", "Distant təhsil", "Dərsdən sonra", "Həftəsonu", "Sabahın tədqiqatçıları" və "Sabahın müəllimi" layihələri tətbiq olunur. İxtisaslı müəllim hazırlığını yaxşılaşdırmağa xidmət edən "Sabahın müəllimi" layihəsi çərçivəsində pedaqoji profilli ixtisaslarda oxuyan tələbələrə mütəmadi olaraq təhsildəki yeniliklər haqqında məlumatlar verilir, təcrübəqabağı konfranslar təşkil olunur, onların ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçmələrinə şərait yaradılır, kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə ali təhsil müəssisələrinə dərslik və metodik vəsaitlərin verilməsi təmin olunur.

Bundan başqa, təhsil müəssisələrində, təhsilverənlərdə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırmaq məqsədilə keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə IV Qrant müsabiqəsində bu il ilk dəfə olaraq muxtar respublika ümumtəhsil məktəbləri də 27 layihə ilə iştirak edib. Sevindirici haldır ki, muxtar respublika ümumtəhsil məktəblərinin ilk dəfə müsabiqədə iştirak etməsinə baxmayaraq, təqdim edilən layihələrdən ümumi təhsil müəssisələri kateqoriyası üzrə 2, fərdi kateqoriya üzrə isə 3 olmaqla, ümumilikdə, 5 layihə qalib olub.

Həmçinin muxtar respublika ümumtəhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası" təsdiq edilmişdir. Qaydaya əsasən bu tədris ilindən başlayaraq muxtar respublikada müəllimlər ödənişsiz və mərhələli şəkildə sertifikasiyaya cəlb olunacaqlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Müəllimlər gələcəyimiz olan gənclərin təhsil almasında, tərbiyə olunmasında xüsusi rol oynayır. Gələcəyimizin təməli müəllimlər tərəfindən qoyulur. Bu təməl nə qədər möhkəm qoyulsa, gələcəyimiz bir o qədər möhkəm qurulacaq, uğurlu olacaqdır".***

*Muxtar respublika müəllimləri Ali Məclis Sədrinin tövsiyələrini bundan sonra da əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirəcək, təhsilin inkişafında yorulmadan çalışacaq, vətənpərvər və bilikli gənc nəsil yetişdirəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Payız-qış mövsümündə də sakinlərə nümunəvi rabitə xidməti göstəriləcək

*2020-ci ilin yanvar-sentyabr aylarında Şahbuz rayonunda əhalinin nümunəvi rabitə xidmətləri ilə təmin edilməsi üçün bir sıra işlər həyata keçirilib. Hazırda rayonda 3737 abunəçiyə rabitə xidməti göstərilir.*

2020-ci il avqustun 12-də Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Rabitə və Yeni Texnologiyalar Nazirliyinə yaşayış məntəqələrində sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqətin artırılması, mal-material ehtiyatının yaradılması istiqamətində verilmiş tapşırıqların icrasına uyğun olaraq Şahbuz Rayon Rabitə İdarəsi tərəfindən payız-qış aylarında sakinlərə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsi məqsədilə mal-material ehtiyatının yaradılması, avtomat telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara, akkumulyatorlara və xətt təsərrüfatına texniki baxışın keçirilməsi, aşkar olunan müxtəlif tutumlu yararsız kabel və dayaqların yeniləri ilə əvəz olunması istiqamətində işlər davam etdirilir.

Ötən dövr ərzində muxtar respublikada fiber-optik xətlərin çəkilməsi də diqqətdə saxlanılıb, Badamlı qəsəbəsində "Badamlı" Mineral Sular Zavoduna və Daylaqlı kəndi ərazisinə fiber-optik xətt çəkilib. Bunlarla yanaşı, rayonun Güney Qışlaq, Ağbulaq, Nursu kəndlərində istismar olunan fiber-optik kabellərdə yaranmış nasazlıqlar aradan qaldırılıb. Həmçinin muxtar respublika ərazisində fiber-optik kabel şəbəkəsinin genişləndirilməsi, turizm obyektlərinin sürətli internetlə təmin olunması məqsədilə bir sıra işlər görülür. Həyata keçirilən tədbirlərin davamı olaraq Ağbulaq İstirahət Mərkəzinə zəruri avadanlıqlar quraşdırılıb. Quraşdırılan avadanlıq Ağbulaq İstirahət Mərkəzini kəsintisiz, sürətli internetlə təmin edəcəkdir.

Cari ilin ötən dövrü ərzində rayon ərazisində 72 yeni sabit şəbəkə telefon xətti çəkilib, 432 abonent genişzolaqlı ADSL (Asimmetrik Rəqəmsal Abunəçi Xətti) texnologiyası vasitəsilə internetlə təmin olunub. İstismar müddəti ərzində rabitə və abunə qurğularında yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində operativ və zəruri tədbirlər həyata keçirilib, sıradan çıxmış avadanlıqlar yeniləri ilə əvəz olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Yeni monoqrafiya çap olunub



***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və orta əsrlər tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevin "Səfəvi, Əfşar, Rusiya və Osmanlı dövlətlərinin Azərbaycan siyasətində Naxçıvan" (XVIII əsrin I yarısı) adlı monoqrafiyası çapdan çıxıb.***

Tədqiqat əsərində ilk dəfə olaraq XVIII əsrin birinci yarısında Azərbaycan Səfəvi və Əfşar dövlətlərinin daxili, Rusiya və Osmanlı dövlətlərinin xarici siyasətində Azərbaycan, bu siyasətdə Naxçıvanın yeri araşdırılıb.

Naxçıvanda XVIII əsrin birinci yarısında baş verən siyasi proseslər araşdırıldıqdan sonra aydın olub ki, tarixin bu dönəmində bir sıra Azərbaycan bölgələri kimi, Naxçıvanda da ictimai- siyasi vəziyyət sabit olmayıb. 1700-1747-ci illəri əhatə edən monoqrafiyada əldə olunmuş faktlar təhlil və müqayisə edilərək çıxarılan elmi nəticələr ümumiləşdirilib. Sonda əsərin ingilis dilində yığcam xülasəsi verilib.

Qeyd edək ki, aparılan tədqiqatın əsas mənbəşünaslıq bazasını müxtəlif illərdə ölkəyə səfər edən əcnəbi diplomat, səyyah, coğrafiyaşünas, eləcə də tarixçilərin əsərləri və yol qeydləri təşkil edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Muxtar respublika gəncləri arasında müəllimlik peşəsinə maraq artır

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarına görə 2018-ci ildən muxtar respublikanın ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulunun müsabiqə yolu ilə aparılmasına başlanılıb. Ötən dövr ərzində keçirilən 5 müsabiqədə 414 müəllim işlə təmin olunub. Müsabiqənin böyük nüfuz qazanması və namizədlərin yüksək fəallığının müşahidə olunması sonuncu imtahanda da özünü büruzə verib. Belə ki, 30 iyun 2019-cu il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan edilən müsabiqəyə həmin vakant yerləri tutmaq üçün 746 nəfər sənəd təqdim edib, onlardan 414-ü keçid balını toplayıb, ən yüksək nəticə göstərən 130 müəllim işə təyin olunub. Son iki ildə keçirilən müəllimlərin işə qəbulu müsabiqələri nəticəsində pedaqoji fəaliyyətə cəlb olunan intellektli və istedadlı gənclər məktəbdə uğur qazanmaqla, təhsildə keyfiyyətə nail olmaqla təkcə məktəblərin deyil, bütövlükdə, təhsil sisteminin qürur yerinə çevrilir.*



***Günay Qənbərova*** 1996-cı ildə Naxçıvan şəhərində anadan olub. İlk təhsilinə Naxçıvan şəhər 705 nömrəli tam orta məktəbdə başlasa da, bunu Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə davam etdirib və 2014-cü ildə məzun olub. Elə həmin il 584 balla Naxçıvan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin Riyaziyyat-informatika müəllimliyi ixtisasına qəbul olub. Müəllimliyə sevgisi olsa da, yaxşı müəllim olacağına inamı məhz universitetdə möhkəmlənib: "IV kursda oxuyurdum. Riyaziyyat müəllimim Nailə Namazova məndən yaxşı müəllim olacağını dedi. Düşündüm ki, o, belə deyirsə, deməli, həqiqətdir. O qənaətdən sonra yaxşı müəllim olacağıma inamım artdı. Eyni zamanda məqsədimə çatmaq, özümü bu istiqamətdə inkişaf etdirmək üçün kiçik fürsətləri dəyərləndirdim".

Günay Qənbərova bilik və bacarığına görə seçildiyinə və keçirilən təhsil konfranslarında fəal gənc kimi iştirakına görə "Gələcəyin müəllimi" təqaüdünə layiq görülüb. 2020-ci il 31 avqust-16 sentyabr tarixlərdə keçirilən imtahanlarda iştirak edərək yüksək nəticələr göstərib. O, eyni vaxtda 3 məktəbə işə qəbul üçün imtahan verərək mümkün 60 baldan 56 bal toplamaqla Kəngərli rayon Təzəkənd, 56 balla Ordubad rayon Çənnəb kənd tam orta məktəblərinə, 59 balla Ordubad rayon 1 nömrəli tam orta məktəbə qəbul olub.

Günay deyir ki, müəllimlik peşəsini uşaqlıqdan sevmişəm. Ən böyük arzum gələcəkdə Vətənimizə layiq müəllim olmaq idi. Şagird öncə müəllimi sevməlidir ki, sonra da onun tədris etdiyi fənni oxumağa meyil etsin. Müəllimlik, sadəcə, bilik öyrətməkdən ibarət olmamalıdır. Yeri gələndə uşaqlarla dost, oyun yoldaşı, həmsöhbət olmağı da bacarmalı, uşaqların bilik, bacarıq, vərdişlərini aşkar edib onlara peşə seçməkdə düzgün istiqamət verməlidir. İnsan seçdiyi peşədə özünü yaxşı mənada ifadə etməyi bacarmalıdır. Mənim sevərək seçdiyim bu ixtisas elm və texnikanın inkişaf etdiyi bu dövrdə əhəmiyyətlidir. Müəllimlik peşəsi müqəddəsdir, onu icra etmək böyük məsuliyyət tələb edir və mən bu məsuliyyəti üzərimə götürməyi özümə borc bilirəm. Azərbaycanı bölgələrə ayırmağı sevmirəm. Ancaq Naxçıvanın, xüsusilə də Ordubadın şəraiti, təbiəti, havası, suyu, ən əsası da insanlarının mehribanlığı, qonaqpərvərliyi danılmaz faktdır. Dərs dediyim müddətdə hər zaman Vətəninə, millətinə xeyirli ola biləcək insanlar yetişdirməyə çalışacağam.



***Ülviyyə Babayeva*** müəllimlərin işə qəbulu üzrə müsabiqənin ən uğurlularındandır, 2020-ci ilin muxtar respublika birincisidir. O, 1986-cı ildə Babək rayonunda anadan olub. İlk təhsilini Babək şəhər tam orta məktəbində alsa da, 1998-ci ildən Ordubad Qızlar Liseyində oxuyub və 2003-cü ildə həmin liseyi bitirib. Elə həmin il Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisasına qəbul olub, ali təhsilini əla qiymətlərlə başa vurub. Öz üzərində yorulmadan işləyən gənc, müəllimlik peşəsində ən təcrübəli müəllimlərlə rəqabət aparmağı üstün tutub. 2020-2021-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək 59 bal toplayıb: "Uğurumu daha çox müəllimlərin işə qəbulu müsabiqəsindəki şəffaf şərait və obyektiv qiymətləndirmədə görürəm. Təbii ki, müəllim olmaq istəyim təsadüfi deyil. Müəllimlik həm də ananın övladına verdiyi tərbiyə kimi əziz və vacib öhdəlikdir. Mənə bu peşəni Həsən Əliyev, Əbdüləli Mirzəyev kimi müəllimlərim sevdirib. Həmişə onlara bənzəmək istəmişəm.

Mənə ana dilini sevdirən də, öyrədən də məhz müəllimlərim olub. Mən də öz müəllimlərim kimi Azərbaycanımın gələcəyi üçün faydalı, bilikli və tərbiyəli şəxsiyyətlər yetişdirməyi qarşıma məqsəd qoymuşam".



***Sahib Əliyev*** 1995-ci ildə Şərur şəhərində anadan olub. Şərur şəhər 1 nömrəli tam orta məktəbdə ilk təhsilini alan Sahib Əliyev keçirilən tarix üzrə fənn olimpiadalarında dəfələrlə qalib olub. 2013-cü ildə məktəbi bitirib, elə həmin il qəbul imtahanında 534 balla Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin Tarix müəllimliyi ixtisasına daxil olub. Sahib müəllim deyir ki, məktəb vaxtlarından tarix fənninə böyük maraq göstərmişəm. Boş vaxtlarımda çoxlu mütaliə edir, maraqlı tarix kitabları oxuyurdum. Universitetdə oxuduğum illərdə də tarixlə bağlı bir çox konfransda iştirak etmiş, universitetlərarası olimpiadaların qalibi olmuşam.

2018-ci ildə hərbi xidməti başa vurduqdan sonra Sahib Əliyev müəllimlərin işə qəbulu imtahanında iştirak edib. 2019-cu ildə Şərur rayonu üzrə vakant yer olmadığı üçün Ordubad rayonunda işləməyə qərar verib. Həmin il keçirilən imtahanlarda 64 bal toplayaraq Ordubad rayonunun Kotam kənd tam orta məktəbində tarix fənni üzrə pedaqoji fəaliyyətə başlayan gənc müəllim kollektivin qısa vaxtda hörmət və sevgisini qazanıb: "Yaşadığım yerdən uzaqda işləmək ilk vaxtlar mənə çətin görünürdü, amma məktəbin kollektivi məni ilk andan çox səmimi və mehriban qarşıladı. Mənə daim dəstək oldu, öz təcrübələrini bölüşdü".

Gənc müəllim məktəb yolunu bir az yaxınlaşdırmaq istədiyi üçün yenidən müsabiqədə iştirak etmək arzusuna düşüb. 2020-ci ildə işə qəbulla bağlı yaşadığı rayon üzrə 3 vakant yer uğrunda imtahanlarda iştirak edib və hər üçündə də yüksək nəticə göstərib. 58 balla Ələkli kənd tam orta məktəbində işə təyin edilib: "Yeni iş yerimdə də kollektiv tərəfindən çox səmimi qarşılandım. Kotam kənd tam orta məktəbində qazandığım təcrübəmlə burada pedaqoji fəaliyyət göstərməyə çalışacağam. Mənim üçün uğurun düsturu yoxdur. Hər dərs sonu şagirdlərimin sevincini izləmək belə, uğurumun bir parçasıdır. Sevdiyim peşədə özümü daha da inkişaf etdirib, şagirdlərimin sevgisini qazanmağı qarşıma məqsəd qoymuşam. Digər ən vacib məqam isə şagirdlərimə olan sevgim və güclü təhsilin gələcəyinə olan inamımdır",– deyir Sahib Əliyev.



***Şəbnəm Abdullayeva*** müsabiqədə yüksək bal qazanan müəllimlərdəndir. O, 1995-ci ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Heydər Əliyev adına tam orta məktəbdə, ali təhsilini isə Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisası üzrə alıb: "Uşaqlıqdan müəllim peşəsini çox sevmişəm. Məktəb illərində həm anamın, həm də müəllimlərimin timsalında müəllimlik peşəsinin nə qədər müqəddəs bir peşə olduğunun şahidiyəm. Ən əvvəl ona görə ki, anam Heydər Əliyev adına tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimidir. Bu, bəlkə də, müəllimlik peşəsini dərindən sevməyimin ilkin səbəblərindəndir. Sonralar Heydər Əliyev adına tam orta məktəbdə oxuyarkən ingilis dili fənnini tədris edən Türkan müəllimə bu fənni mənə daha da sevdirdi. Beləliklə də, qərara gəldim ki, ingilis dili müəllimi olum". Şəbnəm müəllimə 2020-2021-ci tədris ili üzrə müəllimlərin işə qəbulu müsabiqəsində mümkün 60 baldan 58 bal toplamaqla uğurlu nəticə əldə edərək Yarımca kənd tam orta məktəbində ingilis dili müəllimi kimi fəaliyyətə başlayıb: "Məncə, müəllim olmaq təkcə, hansısa məktəbdə dərs demək deyil. Şagirdləri övladın kimi sevmək, onlara qayğı ilə yanaşmaq və hətta lazım gələndə psixoloji dəstək də vermək lazımdır. Mən də bu yolda əlimdən gələni etməyə çalışıram. Seçimlərimdən heç də peşman deyiləm. Muxtar respublikamızın hansı bölgəsində oluramsa olum, Vətənimə, xalqıma layiqli xidmət edəcəyimə və müəllim adını şərəflə qoruyacağıma söz verirəm".



***Zamin Qənbərov*** 1982-ci ildə Ordubad rayonunun Dəstə kəndində anadan olub. 2016-cı ildə Naxçıvan Dövlət Universitetinin Riyaziyyat-informatika müəllimliyi ixtisasına daxil olub və bu il həmin ixtisas üzrə universiteti bitirib. İlk dəfə müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edib. Mümkün 60 üzərindən 58 bal toplayaraq yüksək nailiyyət əldə edən Zamin müəllim Şahbuz rayonu Kolanı kənd tam orta məktəbinə riyaziyyat müəllimi təyin olunub: "Müəllimlik çox şərəfli və eyni zamanda çox məsuliyyətli bir peşədir. Bizlərə əmanət olunan şagirdləri, yüksək bilik, bacarıqla yanaşı, vətənpərvərlik və Azərbaycançılıq ideyalarına sadiq, milli-mənəvi dəyərlərə sahib çıxan, ölkəsi, xalqı üçün faydalı işlər görən şəxsiyyət kimi yetişdirməliyik".



***Murad Babayev*** 1997-ci ildə Babək rayonunun Təzəkəndində anadan olub. 2015-ci ildə Təzəkənd tam orta məktəbini əla qiymətlərlə bitirib. Elə həmin il Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Coğrafiya ixtisasına daxil olub. 2019-cu ildə universiteti bitirib, hərbi xidmətə yola düşüb. Elə bu il qayıdan kimi müəllimlərin işə qəbulu imtahanında iştirak edərək mümkün 60 baldan 58-ni toplayaraq yüksək nəticə əldə edib: "Hərbi xidmətdən qayıdıb öz ixtisasım üzrə müəllim olmaq qərarına gəldim. Müəllimlik mənim üçün müqəddəs peşədir. İxtisasıma o qədər vurğunam ki, bəlkə də, elə coğrafiyanı şagirdlərə sevdirmək üçün müəllimlik peşəsini də bu qədər sevirəm. Dövlətimiz qarşısında öz vəzifələrini şərəflə yerinə yetirənlərdən biri olmaq arzusundayam. Bunlara nail olacağımı bilirəm, çünki özümə güvənirəm".

***Hər müsabiqə imtahanında uğur qazanan müəllimlərin çoxunun ucqar dağ kəndlərini, sərhəd kəndlərini seçməsinə gəldikdə nəticə göz önündədir. Bu gün muxtar respublikanın hansı kəndində və ya şəhərində yerləşməsindən asılı olmayaraq, bütün məktəblərdə bərabər imkanların yaradılması, təhsilin inkişafı istiqamətində atılan addımlar, bu sahəyə göstərilən xüsusi qayğı öz bəhrəsini verir. Artıq müəllim olmağı seçən istənilən muxtar respublika gəncinə hansı məktəbdə dərs deməyin və ya gedəcəyi yolun uzaqlığının fərqi yoxdur. Çünki Naxçıvanda ən ucqar dağ kəndinə belə, üz tutsaq, əvvəllər keçilməsi mümkün olmayan yollardan, tədrisi çətinlik yaradan məktəblərdən fərqli olaraq mümkün olan ən qısa zamanda rahat yollar və ən müasir görkəmli məktəblər ilə rastlaşarıq. Bir zamanlar şəraitsiz məktəblərdə təhsildən yayınan şagirdlərdən, müəllimlərdən fərqli olaraq bu gün o məktəblərdə təhsil almağa və təhsil verməyə tələsənləri görürük. Bu isə muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının, yaradılan müasir təhsil infrastrukturunun, müəllim əməyinə verilən qiymətin, müəllim nüfuzunun artmasının nəticəsidir.***

**Ülviyyə HACIYEVA**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin sentyabr ayında verilən elektrik enerjisinin həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3604 | 266,7 | 266,7 | 100,0 |
| 2. | Şərur rayonu | 1981 | 141,0 | 141,0 | 100,0 |
| 3. | Babək rayonu | 1783 | 127,3 | 127,3 | 100,0 |
| 4. | Ordubad rayonu | 920 | 65,5 | 65,5 | 100,0 |
| 5. | Culfa rayonu | 1062 | 78,2 | 78,2 | 100,0 |
| 6. | Kəngərli rayonu | 757 | 55,4 | 55,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 347 | 24,8 | 24,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 155 | 11,1 | 11,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 22473,7 | 2022,7 | 2021,4 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33082,7** | **2792,7** | **2791,4** | **100,0** |

**Qeyd:** Sentyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 33 milyon 83 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 792 min 700 manat olmuş, cəmi 2 milyon 791 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## *İtmişdir*

"Marafon" Yüngül Atletika İdman Klubu və"Rabitəçi" Yüngül Atletika İdman Klubu İctimai birliklərinin möhürləri itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 742**